İzoKontakt®1

AKTİV SU SIZINTILARININ QARŞISINI ALAN, TEZQURUYAN QARIŞIQ (ağ, boz)

Məhsul haqqın
Sement və qum tərkibli, su sızıntılarının izolyasiyasında, montaj və təmir işlərində istifadə olunan, yapışma müqavimətini artıran, su ilə qarışdırıldığı zaman sürətlə genişlənərək sərtləşən, istifadəyə hazır tıxac qarışığıdır.

İstifadə sahələri
Bu məhsuldan:
• daxili və xarici məkanlarda;
• döşəmə və divarlarda;
• genişlənməyə meylli olmayan çatların təmirində;
• su sızan yerlərin izolyasiyasında;
• boruların izolyasiyasında;
• beton səthlərin təmirində;
• su sızıntısı ehtimal olunan yerlərin izolyasiyasından əvvəl doldurulmasında və tıxanmasında;
• qəlib içi qopmuş dəmir boşluqların doldurulmasında;
• betonun kənar və künclərinin oval şəklə salınmasında və aralıqların təmir edilməsində;
• metal anker boltlarının və alətlərinin bərkidilməsində istifadə olunur.

Üstünlükləri
• birkomponentlidir;
• yalnız su ilə qarışdırılır;
• sürətlə sərtləşərək su sızıntıları üçün maneə əmələ gətirir;
• istifadəsi asandır;
• genişlənərkən su keçirməyin qarşısını alır;
• 15 dəqiqə sonra üzərinə digər məhsullar çəkilə bilər;
• tərkibində xlor olmadığı üçün polad konstruksiyaların korroziyasına səbəb olmur;
• içməli su anbarlarında etibarlı şəkildə istifadə oluna bilər.

İstifadə qaydaları
Səthin hazırlanması. İstifadə olunacaq səthlərin sağlam, quru, dözümlü, tozsuz, təmiz və ölçülərinin düzgün olmasına diqqət yetirməli, səth yapışma müqavimətini zəiflədən bütün növ yağ, pas və parafin qalıqlarından, boya və nəm saxlayan maddələrdən tamamilə təmizlənməli və xırda qırıntılar qalmamalıdır. Yaranmış boşluqlar və çatlar 20 mm dərinliyində və enində, kənarları dik olaraq kəsilməlidir. Boşluqların V şəklində, künclərin isə sərt uclu kəsilməsi yolverilməzdir.

Qarışığın hazırlanması. 60 saniyə ərzində istifadə olunacaq miqdarda məhsulu təmiz bir qabın içinə qoyun və lazımi miqdarda su əlavə edin. Münasib əlcək geyinərək 30 saniyədən çox olmamaq şərti ilə qarışdırın. Qarışığa heç bir digər kimyəvi maddə əlavə etməyin.

Diqqət: soyuq havada isti və ya ilıq su istifadə olunmalıdır. 1 kq İzoKontakt 1 məhsuluna 0,24-0,28 litr təmiz su əlavə edərək qarışdırın (Su nisbəti havanın tempe-raturundan asılı olaraq dəyişə bilər).

Tətbiqi. Su sızan və çatlamış yerləri ən azı 20 mm enində və dərinliyində qazın. Məhsulu lazımi miqdarda su ilə qatın və əldə yumrulayın, isinməyə başlayanda cəld hərəkətlə sızıntı və çat olan yerlərə vurun. 60 saniyə ərzində əlinizlə üstündən basaraq saxlayın. Məhsul bir az sərtləşdikdən sonra əli astaca çəkə bilərsiniz. Əgər daha böyük boşluqlar olarsa, onda bu proseduranı həmin boşluqların çevrəsindən mərkəzinə doğru istiqamətdə təkrar etmək olar. İstifadədən dərhal sonra boşluğun kənarlarında qalan artıq məhsul təmizlənməlidir.
Məhsuldan divar və döşəmə arasındakı aralıqların izolyasiyası məqsədi ilə də istifadə oluna bilər. Bu zaman aralıqları ən azı 20 mm enində və dərinliyində qazın. Qazılmış yerdə olan məftili, simi, taxta parçalarını və digər xırda hissəcikləri təmizləyin. Aralıqları münasib bir şəkildə İzoKontakt 1 məhsulu ilə doldurun.
Metal ankerbolt və ya bərkitmə alətlərini betonun səthinə bərkitmək üçün beton tökülmüş səthdə mexaniki deşik açan alətlə, ankerbolt alətlərinin ölçüsündən daha böyük boşluq açın. Daha sonra bu boşluqların içərisini təmizləyin.
İzoKontakt 1-i istifadə etməmişdən əvvəl boşluqları lazımi miqdarda su ilə nəmləndirin. Daha sonra boşluqları İzoKontakt 1 məhsulu ilə doldurun. Metal ankerbolt və ya bərkitmə alətlərini cəld bir hərəkətlə şaquli istiqamətdə çevirib yerinə yerləşdirin və sonra üzərinə nəm saxlama xassəli məhsullar çəkin

Tövsiyələr. İzoKontakt 1 istifadə olunan mühitin temperaturu +5^{0}C-dən aşağı və +32^{0}C-dən yuxarıdırsa lazımi temperatur təmin olunmalıdır. İstifadə olunan səth 15 dəqiqə müddətində nəm olmalıdır. Quru və su hopma qabiliyyəti çox olan səthlərdə bu müddət 30 dəqiqə olmalıdır. İstifadədən sonra bütün alətlər və ləvazimatlar su ilə təmizlənməlidir. Sərtləşdikdən sonra ancaq mexaniki yolla səthdən təmizlənir.

Texniki göstəricilər

Məhsulun tərkibi	xüsusi sement və kimyəvi əlavələr
Rəngi	boz
Təzyiqə dözümlülüyü: • *30 dəqiqədən sonra* • *24 saatdan sonra* • *28 gündən sonra*	 ≥ 7 N/mm² ≥ 10 N/mm² ≥ 30 N /mm²
Qarışığın həcm kütləsi	2,14 kq / Litr
Qopma müqaviməti: • *28 gündən sonra*	 ≥0,50N /mm²
İstifadə temperaturu	+5^0 C – +32^0 C
Su / toz nisbəti	1.7-2.0 litr maye / 7kq toz
Səthə çəkilmə müddəti	1,0-1,50 dəqiqə
Son quruma müddəti	2-3 dəqiqə
Qablaşdırma	7 kq-lıq dəmir qablarda

Sərfiyyat
Su sızan yerlərin ölçüsündən asılı olaraq sərfiyyat dəyişə bilər.